## ZƏFƏR YÜRÜŞÜNDƏN 5 İL ÖTÜR...

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*



*Elçin MEHRƏLİYEV,*
*yazıçı-publisist,*
*filologiya elmləri doktoru*

### 10. UNUTQANLIQ SİNDROMU

Ermənistan-Azərbaycan münaqişələri arxasında nə kimi həqiqətlərin gizlənməsindən bəhs etdik. Lakin 70 illik sovet dönəmində, həmin həqiqətləri əks etdirən tarixi sənədlərin və müxtəlif səpgili əsərlərin tədqiqi və təbliği qadağan edildiyindən, erməni millətçiləri tərəfindən törədilmiş terror aktları və soyqırım cinayətlərinin bütünlüklə çarizmin və Daşnaksütyunun (həmçinin yazıq Müsavatın!) ayağına yazılması üzündən biz əsl gerçəkliklərdən məlumatsız qalmışdıq. Sovet təbliğat maşını tarixi gerçəklikləri təhrif edərək erməniləri bizə yaxın dost, qardaş, mehriban qonşu cildində sırımışdı. Başqa sözlə, sovet imperiya rejimi 15 respublikanı, həmin respublikalarda yaşayan müxtəlif xalqları vahid sovet bayrağı altında birləşdirib idarə etmək, öz "humanist ideyalarına" inandırmaq və onların uğrunda mübarizəyə səfərbər etmək üçün ermənilərin talançılıq və viranedicilik meyllərini ört-basdır etməklə, bütün mənalarda yeni kütləvi qırğın və soyqırım cinayətlərinin baş verməsi üçün əlverişli şərait yaratmışdır. Özümüz də his etmədən, anlamadan manqurtlaşmışdıq, əsil-kökümüzü yaddan çıxartmışdıq, dostla düşməni səhv salmışdıq. Ona görə də nəinki erməninin nə kimi varlıq olduğunu, erməni təcavüzünün nə kimi faciələrə gətirib çıxara biləcəyini təsəvvür edə, hətta belə "qara-qura fikirləri" ağlımıza belə gətirə bilmirdik. Filologiya elmləri doktoru, professor Vilayət Quliyev XX əsrin əvvəllərindəki münaqişələrlə sonralarındakı münaqişənin fərqli nəticələrini məhz "unutqanlıq problemi" ilə əlaqələndirir: "Ermənilər nə 1905-1907-ci illərdə, nə də 1918-1920-ci illərdə qarşılarına qoyduqları məqsədə tam şəkildə nail ola bildilər. Bəlkə də bu ona görə mümkün olmuşdu ki, hələ saxta sovet ideologiyası, tarixi dostluq və qardaşlıq haqqındakı yalançı miflər Azərbaycan türklərini indiki kimi dərin yuxuya verməmişdi. Bəlkə də bu ona görə belə olmuşdu ki, hələ dostu dost, düşməni düşmən kimi tanımağı bacarırdıq". Həqiqətən, bizi necə tovlayıb ağlımızı başımızdan almışdılarsa, Azərbaycanın minlərlə dinc müsəlman vətəndaşını qılıncdan keçirdən Stepan Razin, Stepan Şaumyan, Lalayan, Avakyan, Əmiryan və s kimi cəlladların, başkəsənlərin şərəfinə küçə, qəsəbə, şəhər adları vermişdik, abidələr ucaltmışdıq və o abidələrin üzərinə döşümüzdə "Oktyabryat" ulduzu, boynumuzda pioner qalstuku, sinəmizdə komsomol nişanı, ürəyimizin başında "partbilet" güllər, çiçəklər düzürdük. Ətrafında dövrə vurub "Qardaş olub Hayıstan, Azərbaycan!" şərqisini oxuyurduq. Xırda təşkilat nümayəndələrindən tutmuş dövlət başçılarına qədər İttifaq miqyaslı tədbirlərdə yan-yana əyləşdirilirdi. Mənim özümü bir neçə dəfə, Moskvada keçirilən ümumittifaq tədbirləri zamanı, mehmanxanada gecləmək üçün erməni ilə otaq yoldaşı salmışdılar. Bakıda təhsil alan tələbələr əsasən erməni evində kirayədə qalırdılar (elə mən də). Hətta sanatoriyalarda, istirahət düşərgələrində qapıbir qonşumuz erməni olmalı idi. Necə deyərlər, hara gedirdiksə bizi bir-birimizə calayır, dost, qonşu etməyə çalışırdılar. Onlarda şirin dil, bizdə də şirin dilə hayıl-mayıl olmaq, əlbəttə ki, dost olurduq, bir-birimizə hədiyyələr bağışlayırdıq, bir-birimizin şəninə tost deyirdik. Heç yadımdan çıxmaz, Ümumittifaq Ali Komsomol Məktəbində 40 günlük seminar zamanı da Qagiq Ayrumyanla bir otağa düşmüşdük. (İndi bilmirəm ölüb, ya sağdır, müharibə zamaı qırğınlarda iştirak edib, ya etməyib). O vaxt isə Ermənistanda komsomolun Mərkəzi Komitəsinin şöbə müdiri idi. Təbii ki, şirindildi, bir "Elçincan" deyəndə beş də ağzından tökülürdü, şairliyi də vardı, sönbətimiz tuturdu. Bir çamadan erməni kanyakı gətirmişdi və mən onda gördüm ki, o, gətirdiyi içkilərlə bizə mühazirə oxumağa gələn yüksək çinli partiya, komsomol işçilərini necə ələ alır. Mən isə Novruz bayramından qalma şirniyyat gətirmişdim, onu da orda oxuyan azərbaycanlı uşaqlarla yeyəsi olduq. Qagiq bir dəfə iftixar hissi ilə Mikoyandan danışdı, onun Moskvanı "fəth etməsini" xatırlatdı. Mən bunun müqabilində Nəriman Nərimanovu yada saldım, dalınca da indi Heydər Əlirza oğlunun dayandığı zirvəni nişan verdim. Onda hiss etdim ki, sözüm Qagiqi heç açmadı, amma heç nə üzə vurmadan "Ladna, Elçincan, ya paşol" - deyib qapıdan çıxdı...

Sovet qapalı sistemi bizi tarixi həqiqətləri öyrənməkdən necə məhrum etmişdisə, ermənilərin törətdiyi qırğınlar haqqındakı materiallardan biri də əlimizə düşməmişdi. 1818-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti daşnakların 1918-1920-ci illərdə törətdiyi cinayətləri araşdırmaq üçün Fövqəladə Tədqiqat Komissiyası yaratmış və bu Komissiya 3500 səhifədən ibarət 36 cildlik materiallar toplusu hazırlamışdı. Lakin Sovet quruluşunun Azərbaycanda da bərqərar olmasından sonra o toplunun bircə səhifəsi də ələ düşmədi, o boyda soyqırım söhbəti 70 ildən çox müddətdə xalqdan gizlədildi.

Əlbəttə, Qarabağ gizlinlərini bilənlərimiz də vardı. Amma onlar həmin gizlinləri açıb-ağartmaq, həqiqətləri dilə gətirmək imkanına malik deyildilər. Bütün çap məhsulları, o cümlədən mətbu vasitələr təftişçi redaktorlar, sərvaxt senzorlar süzgəcindən keçirilirdi. Hər yerdə "KQB" agentlərinin gözü və qulağı vardı. Hünərin nə idi siyasi məsələlərə toxunasan, tarixi həqiqətlərdən danışasan, sənə dərhal "antisovet", "panislamist", "pantürkist", "qatı millətçi", ta nə kimi nə kimi damğalar vurub taleyinin kökünə daş atacaqdılar. Amma elə ki, "Qorbaçovsayağı perestroyka" gəldi və süni şəkildə yaradılmış şəraitdə Qarabağın başının üstünü düşmən təhlükəsi almağa başladı qəflət yuxusundan ayıldıq, dilimiz açıldı, qələmimiz işə düşdü, erməni məkr, hiyləgərlik və xəyanətkarlığını ifşa etməyə başladıq, onların saxta ərazi iddialarına rədd cavabı verərək milli özünümüdafiəyə səslədik. Sevimli şairimiz Famil Mehdi xalqımızın bu etiraz əhval-ruhiyyəsini ifadə edərək yazırdı:

Nankor, yaxşı tanımadım səni, niyə,
Çiyirtkəni mən tay tutdum
qızılgülə, səməniyə.
Hələ sənə dost da dedik,
Dost da dedik, sağlığına tost da dedik.
İndi bildim çörək kəsib, tapdalamaq,
Ürək qırıb, qəlb talamaq,
Bir hiyləyə min ev yıxmaq,
Dəyirmanın boğazından
Ölü girib, diri çıxmaq,
Harda bir gün gecələdin
Bir xaç çəkib, daş basdırmaq,
Tarixini daşlaşdırmaq, yaşlaşdırmaq
Məqamında ütülənmək,
Məqamında tülkülənmək,
Qonşuların ocağına
Ac qurd kimi göz dikmək də,
Sənin köhnə xislətinmiş...

Mahal kişinin prototipləri də bilirmişlər həqiqəti, ona görə heç vəchlə yurddan çıxmaq istəmirdilər. Mahalla övladlarının bir-birini başa düşməməsi zaman, dövran məsələsi idi. Mahalın qaldırdığı mənəvi üsyan yalnız yurdu qorumaq əvəzinə onları atəş altından çıxardıb uzaqlaşdırmağa çalışan "siyasətcil" övladlarının timsalında cəmiyyətdəki daxili laqeydliyə, biganəliyə qarşı deyil, həm də keçmişi, ermənilərin törətmiş olduğu faciələri onlara unutduran zəmanəyə, bütöv sovet sisteminə və rejiminə qarşı idi. Mahala görə torpaq onun uğrunda döyüşəndə, onu qoruyanda yurd olur, vətən olur, vətən torpaqlarını qorumaq şərəf işidir, "can nə qədər şirin olsa da, şərəfdən, ləyaqətdən yüksəkdə dura bilməz", oğullara görə isə "əliyalın camaatı güllə altında saxlamağın mənası yoxdur, torpağı ayrı-ayrı vətəndaşlar yox, dövlət qorumalıdır. Mahal kişi müharibə gedən bir ölkədə "əlli partiya yaradılmasını, hərənin bir tərəfə çəkməsini qəbul edə bilmir." Hakimiyyətə iddialı oğullar isə daha vacib olanı unudub demokratiyadan dəm vururlar, torpağın müdafiəsi üçün əvvəlcə hakimiyyət dəyişikliyinə nail olmağı düşünürlər. Hansı tərəf haqlı idi? Əlbəttə ki, Mahal kişi! Yurd, vətən ötən minillərdən üzü bəri ona görə yurd, vətən olaraq qala bilmişdir ki, onun Mahal kimi m?rd, fədakar insanları olub. Yəni Vətəni nəyin bahasına olur-olsun müdafiə etmək əqidəsində olanlar sırasında Mahal kişi nə birinci, nə də axırıncıdır. Yeri gəlmişkən, M.S.Ordubadinin "Qanlı sənələr" kitabında onlardan biri - el ağsaqqalı Novruz kişi haqqında məlumat verilir. Yazıçının kədərli olsa da, iftixar hissi doğuran hekayətindən belə məlum olur ki, 1905-ci ilin qanlı hadisələri zamanı ermənilər İrəvan ətrafındakı Gözəcik adlı Azərbaycan kəndi üzərinə basqına hazırlaşarkən Novruz kişi kəndi tərk etməyə hazırlaşan adamların qabağını kəsərək deyir: "Camaat, hara qaçırsınız? İstəyirsiniz bu qaçmaqla Qafqaz müsəlmanlarını başqa millətlərin yanında başıaşağı edəsiniz? Məgər bu qaçmaqla ermənilər sizi boşlayaçaqlar? Xeyr! Xeyr! Bunların qabağından qaçdıqca daha da cürətli olub bizə və ailəmizə hər bir əsrdə insanlığa rəva görülməmiş hörmətsizliklər yetirəcəklər. Məhəmməd Peyğəmbərin (s) şəriətinə görə, düşmən qabağından qaçmaqla can verməmək qəbahətli və rəva görülməyən hərəkətlərdəndir. Bilirsiniz ki, bizim bu məzarıstanımızda yatan babalarımızın sümükləri çıxarılıb kənar kənddə yandırıldıqdan sonra onların məzarlarının yerində Ermənistan təşkil ediləcəkdir. Mən axirətdə məsul olmamaq üçün müdafiəyə qalıb qüvvəm çatdığı qədər çalışacağam". Lakin el ağsaqqalının bu sözləri də kəndin sakinlərini dayandırmır. Onlar qaçırlar. Novruz kişi isə təkbaşına doğma kəndini müdafiə etməyə qalır. Bir məçə erməni öldürüb qalanlarını qaçmağa məcbur edir. Təkrar hücum zamanı isə gülləsi qurtaran Novruz kişini əsir alırlar. Kəndin əksər yerlərini odlayıb, məscidi, minbəri, müqəddəs kitabları və Novruz kişinin evini də odlayıb onu Tijrabat adlı erməni kəndinə aparırlar. Orada min cəfa və əziyyətlə başını kəsirlər. Yazıçı qeyd edir ki, ermənilərdən çıxan sözsöhbətə görə, Novruz kişinin başını kəndin keşişi Ayrapet kəsmişdir. Zira, Gözəcikdə Novruz kişinin vurduğu ermənilərdən birisi keşişin oğlu imiş. Beləliklə, Novruz kişinin başını "min beş yüz müsəlman sərkərdəsinin başıdır" - deyə əvvəlcə Aleksandropol, sonra is? Bakı şəhərinə göndərmişlər".

Bu da Əməkdar mədəniyyət işçisi Şakir Hənifəzadənin düşüncələri: "Bu ekran-səhnə əsərinin kompozisiyası sadə bir süjet xətti üzərində qurulmuşdur: Mahal kişinin paytaxtda yaşayan və hərəsi bir mənsəb sahibi olan dörd oğlu artıq düşmən mühasirəsinə düşmək təhlükəsi qarşısında qalan kəndlərinə gəliblər ki, buradakı ata-ananı və yeniyetmə bacını götürüb, cəbhə xəttindən uzaq, sakit şəhərə aparsınlar. Onlar ilk baxışdan comərdlik edirlər, razı deyillər ki, ata-ana, bacı düşmən təcavüzünə hədəf olsunlar. Əslində isə həqiqi comərdlik, kişilik, o olardı ki, onlar doğma kəndin - yurd yerinin təcavüz hədəfinə çevrilməsinə, düşmən tapdağı altına düşməsinə razı olmayaydılar və kəndə də ata-ananı təhlükəsiz yerə çıxarıb aparmaq üçün deyil, onlara, kəndin müdafiəçilərinə həyan durmaq üçün qayıdaydılar. Təəssüf ki, onlar son illərdə xalqımızın əksər təbəqələrinə sirayət etmiş ziyanlı əhval-ruhiyyənin əsiridirlər: guya ki, yurdu xalqın özü yox, dövlət qorumalıdır. Sanki cəmiyyətin ayrı-ayrı fərdlər toplusu olduğu və dövlət tərəfindən idarə edildiyi, xalqın gücünə arxalanmadan dövlətin (yəni idarəetmə aparatının) nədənsə uğur qazana biləcəyinin mümkünsüzlüyü həqiqəti bilə-bilə unudulur. Ali məktəb rektoru olan oğul tələbələrin dərdini çəkir; siyasi xadim olan sabahkı xarici səfərə gedəcəyinə görə narahatlıq duyur; nazir müavinliyindən rəisliyə keçirilmiş oğul işinin çoxluğundan, partiya qəzetinin redaktoru olan oğul qəzetin çapa yubanacağından əsəbləşir. Bir sözlə, hər şeyin narahatlığı var. Təkcə yurd yerindən, onun müdafiəsini təşkil etməkdən ötrü narahatlıq yoxdur. Əslində film-tamaşada bu da var: düşmənlə vuruşda olan və səsi-sorağı gəlməyən qonşu oğlu, "dağa qalxmağa hazırlaşan" cavan polis nəfəri, lazım gələrsə, özü də tüfəng götürüb düşmən qabağına çıxmaq niyyətində olan 15-16 yaşlı bacı və yaxınlaşmaqda olan fəlakət ərəfəsində yurd yerinin ağır gününün dərdini çəkən qoca ata və ana. Necə də dəqiq seçimlərdir! Altı ildə Vətən məhz bu qaydada "müdafiə olunduğu" üçün torpaqlarımızın 20 faizi düşmən tapdağı altına düşmüşdür!"

Rəhmətlik qələm dostum Şakirin qənaətini Zəfər yürüşü təsdiq etdi. Qarabağı işğal edildikdən 25 il sonra, müstəqillik dövrü nəsli xilas etdi.

*(Davamı 3-cü səhifədə)*

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

*(Əvvəli 2-ci səhifədə)*

O nəsil ki, o, gözünü açıb tamam başqa gerçəkliklər görmüşdü, nə Rusiyadan, nə də onun qurduğu avtoritar rejimdən asılı deyildi, azad idi, başının üstündə yumruq görməyə öyrəncəli deyildi, dostunu, düşmənini tanıyırdı, hətta nəinki tanıyırdı, onun "dabbaxda gönünə bələd olmuşdu", ağlı kəsəndən yurd həsrəti ilə qovrulan doğmalarının ahu-zarını hiss etmişdi, ermənilərin qətlə yetirdiyi, işgəncələr verdiyi, şikəst etdiyi, müsibətlərə düçar etdiyi valideynlərinin, əzizlərinin intiqamını almaq arzusu ilə böyümüşdü. Bir çoxları kimi, mən də bir qələm adamı olaraq bunu yaxşı anlayırdım və 2004-cü ildə nəşr etdirdiyim "Doxsanıncı illər" adlı romanımda Qarabağı azad edəcək yeni nəsli özündə təcəssüm etdirən balaca qəhrəman obrazı yaratmış və ona "Ümid" adı vermişdim. Filologiya elmləri doktoru, professor Salidə Şərifova həmin əsərin finalda gələcəyə yönəlik xüsusiyyətinə toxunaraq yazır: "Elçin Mehrəliyevin "Doxsanıncı illər" romanının finalı (hadisənin sonu) Ümidin sağ qalması, dünyada ən əziz varlıq olan anasına qovuşması ilə bitir. Bu, müəllifin genetik milli dəyərlərə mənsub olan və eyni zamanda hələ kamil şəxsiyyət kimi formalaşmamış yeniyetmə Ümidin timsalında Azərbaycan millətinin gələcəyinə işarəsidir, bununla da o, əsərdə göstərilməyən, lakin mənası nəzərdə tutulan proloqu oxucunun öz ixtiyarına buraxır." Tənqidçi-ədəbiyyatşünas məqaləsinin başqa bir yerində yazır: "...Elçin Mehrəliyevin "Doxsanıncı illər" romanında isə balaca Ümid obrazı vasitəsilə Azərbaycan millətinin dirçəliş potensialı əks etdirilir. Ermənilərin Ümidi öldürməyə canfəşanlıq göstərməsi onların ümumilikdə Azərbaycan millətini yer üzündən silmək cəhdi kimi qiymətləndirilməlidir. Samvelin dili ilə bu niyyət əsərdə yetərincə səsləndirilmişdir: "O qəşəng türk balası var ha, sənin oğlun, o küçüyü də tutub qulaqlarını kəsəcəm... Burda toxumunuz qalmayacaq! Sarı Məhəmməd, bura Böyük Ermənistan olacaq, eşidirsən!?" Müəllif Azərbaycanın gələcəyinin rəmzi kimi Ümidin xilas olunmasını təsvir edir... Bununla da, müəllif Azərbaycan xalqının parlaq gələcəyinə inamını oxuculara çatdırır." Qeyd etməliyəm ki, Zəfər yürüşündə öndə gedən Ümidlərin 20-25 yaşı ancaq olardı...

Xilaskar yeni nəsil haqqındakı bu qısa şərhimiz ermənilərin beşikdəki, yaxud hamilə qadının bətnindəki türk-azərbaycanlı körpəsini də öldürmək soyuqqanlığına aydınlıq gətirir: ermənilər yaxşı dərk edir ki, təmiz türk-azərbaycanlı qanlı insanlar yaşadıqca, vətənlərini də qoruyacaq, düşməni yenə əzəcəklər.

Xilaskar yeni nəsillə bağlı başqa bir misal da gətirim: 2005-ci ildə (diqqət edin, Zəfər yürüşündən 15 il əvvəl!) "Qarabağ" qəzetində dərc etdirdiyim "Sınıq araba" adlı hekayəmdə, demək olar ki, yüzə yüz həmin mövzunu işləmişdim. Hekayənin məğzi bundan ibarətdir: Bakıda yaşayan iki dost, qarlı-şaxtalı bir havada, Ağdam rayonunun Sultanbud meşəsi deyilən tərəfdə sığınacaq tapmış qaçqın qohumlarından birinin vəfatı xəbərinə yola çıxır. Yas yerinə çatacatda yolun kənarında qar örtmüş zir-zibil qalağı içindən nəyisə dartıb çıxartmağa çalışan bir uşağın sətəlcəm olacağını düşünüb maşını saxlayırlar. Məlum olur ki, uşaq oradakı sınıq arabanı götürüb sürmək istəyir. Uşağı tovlayıb özləri ilə qaçqınların yanına gətirirlər. Amma yas yerindən çıxanda onu yenə həmin yerdə, sınıq arabanı dartışdırdığını görürlər. Soruşanda ki, "axı neynirsən bu sınıq arabanı?", uşaq deyir ki, sürüb kəndimizə gedəjəm, hansı ki, o, kəndin nə üzünü görüb, nə də yolunu tanıyır. Hekayə belə tamamlanır:

"Göy «Jiquli» qarlı yolda bir az əvvəl saldığı izi tutaraq indi daha sərbəst hərəkət edirdi. Amma bir az getmiş dayandı.

- Nə Niyaz, nə də Sahil gözlərinə inana bilmirdilər: bayaqkı uşaq yenə həmin yerdə, həmin qarlı zibillikdə idi, ciddi-cəhdlə sınıq arabanı dartıb çıxartmağa çalışırdı.

Bayaqkı maşının yenə bərabərliyində dayandığını görcək Azər də əl saxladı, qəddini düzəldib pencəyinin qolu ilə burnunu sildi və bir az əvvəl «yol göstərdiyi» əmilərlə heç tanış deyilmiş kimi donuq nəzərlərini göy «Jiquli»yə dikib maddım-maddım baxdı.

- Yox, axır-əvvəl qayıdarıq yurdumuza, inşallah!.. Mütləq qayıdarıq! - Niyaz gözləri yol çəkirmiş kimi fikirli-fikirli dilləndi.

Sahilin fikri öz oğlunun yanında idi, dostunun dediklərini eşitmədiyindən bir söz də demədi.

Sonra göy «Jiquli» siqnal verib yavaş-yavaş qarlı zibillikdən uzaqlaşmağa başladı...

Daha heç kəs dinib-danışmırdı... Dağ Qarabağın soyuğu maşının salonuna dolmuşdu..."

Bəli, bizim nəslə dostluq şeirləri, nəğmələri oxutdura-oxutdura hər şeyi unutdurmuşdular. Təkcə rəhmətlik Gülöyşə nənəmdən uşaq vaxtı eşitdiyim bir neçə söz ilişib qalmışdı yaddaşımda: "Ermənilər adam deyillər, dava vaxtı boylu qadınları süngüyə keçirirdilər, qocaların, ağbirçəklərin kürəyinə qaynar samovar bağlayırdılar." Bu vəhşi işgəncənin səbəbini, erməni xislətinin mahiyyətini isə açıqlayıb-anladan yox idi... Dərsliklərdə, kitablarda oxuyub-araşdırıb beyinə vurası bir kəlmə də yazı qalmamışdı. Həm bu, həm də şirin dilə aldanmaq, unutqanlıq, rəqibi saymazlıq, pisliyi bağışlamaq kimi xüsusiyyətlərimiz üzündən biz yenidən, həm də 30 illik bir müddətdə erməni zülmünü çəkməli olmadıqmı? Ötən 30 ildə xalq arasında belə bir deyim elə-belə işlənmirdi ki: "Bizim unutqanlığımız bizim bəlamız oldu." Bə nədi, keçmişi unutqanlıq həmişə ağır nəticələrə gətirib çıxarır. O dərəcədə ağır nəticələrə ki, ömrün boyu çalışsan da, onu düzəldə bilmirsən.

Hələ 1906-cı ildə Ömər Faiq Nemanzadə yazırdı: "...Yadımıza belə gətirməzdik ki, ermənilər çox-çox əvvəl, gecə-gündüz, kişi-arvad hazırladıqları hədsiz-hesabsız qanlı faciələri oğul-uşağımızın başında oynayacaqlar, hazırladıqları bombaları bizim başımızda partladacaqlar.

Güman etməzdik ki, rus generalları bizim sədaqət və itaətimizin əvəzində ermənilər ilə bir olub bizi bu dərəcə dəni vasitələr ilə qıracaqlar.

Bu inanmaqlığımız, bu sadədilliyimiz səbəbilə idi ki, böyüyümüz, kiçiyimiz, yazıçımız, müxbirimiz... bir sözlə cümləmiz qonşu ermənilər ilə yenə qədimsayaq üzrə, sülhanə rəftar edib rahat və arxayın olmağı vəd və bəyan edirdik. Və bu sürətlə millətimizin gözünü qafilanə bağlayıb böyük bir təhlükə və uçuruma sarı hazırlayırdıq ki, o təhlükənin əvvəlinci zərbəsini Qarabağ vüquatı çox açıq meydana çıxartdı... İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq."

Ancaq yenə aldandıq, yenə unutqanlığımız üzündən növbəti milli faciələrimizi yaşamalı olduq.

1905-ci il yayın başlanğıcında Qarabağın kefcil bəyləri ermənilərin azərbaycanlılara qarşı savaşa hazırlaşmalarına fikir vermədikləri kimi (ifadə şuşalı tədqiqatçı-publisist Vasif Quliyevə məxsusdur), 1980-ci illərin sonu-1990-cı illərin əvvəllərində də azərbaycanlı "partnomenklatur" məmurlar erməni təhdidlərini qulaqardına vurub hər şeyi Mərkəzin ixtiyarına buraxdılar. Hər iki halda Azərbaycan kütləvi dağıntılara və külli insan itkisinə məruz qaldı. Belə görünür, biz aldanmağa və unutmağa meylli millətik, Xalq şairi Bəxtiyar Vahabzadə demiş, unutqanlıq bizim zatımızda var: "Mən uzun illər xalqımızın milli psixologiyasını öyrənməyə çalışmış və ən nəhayət, bu qərara gəlmişəm ki, bizim millətdə yaxşılıqları heç vaxt unutmamaq, amma ona olan pisliklərin üstündən qələm çəkmək şakəri var.

Mən bununla bir xalq üçün başqa xalqa qarşı həmişə kin və küdurətlə yaşamağı müsbət hal hesab etmirəm. Lakin ona olan pislikləri, yəni tarixi yaddaşı unutmamağı, həmişə ayıq-sayıq olmağı, "itlə loidaş ol, çomağı əlindəm buraxma" fəlsəfəsini özünə bayraq etməyi vacib sayıram.

Bax, bu ayıq-sayıqlığımızın olmaması və türkəçayalığımız ucbatından çoxəsrlik düşmənimiz olan erməni qılığımıza elə girdi ki, 5-10 il əvvəl başımıza gətirdiyi müsibətləri də unudub, "axçikləri" evimizin gəlini də elədik.

Nəticəsi göz qabağındadır. Unutqanlığımız sayəsində bu gün millətimizin halalca adından da imtina edirik. Bu günə qədər öz adımızdan başqa hər adı küreyimizə yamayıblar. Amma indi öz doğma adımızı özümüzə qaytaranda, buna başqası yox, özümüzünkülər etiraz edir. Məgər yalnız bu fakt, bizim tarixi yaddaşımızı unudub manqurtlaşmağımıza sübut deyilmi?" Bəli, biz unuduruq ki, yeri gələndə şirin dilli olmaq, məqamında özünü qərib və məğmun göstərmək, daxilən isə kin-küdurət hissi ilə yaşamaq, əlaltından yeni savaşa hazırlaşmaq və fürsət düşüncə hiyləgərliklə təxribat törətmək, arxadan zərbə vurmaq erməni xislətinin əsas cizgilərindəndir.

"İrşad" qəzeti isə 1906-cı ildə xəbərdar edərək yazırdı ki, ermənilərlə sülh haqqındakı danışıqlara inanmayın, coşqun ibarələrlə sülh sazişinə aldanmayın və "sülh istəyirsənsə, müharibəyə hazır ol!" məsəlini daim yadınızda saxlayın. Erməni daşnaklarından öz döyüş keyfiyyətləri ilə daha üstün olan tatarlar (azərbaycanlı türkləri nəzərdə tutulur - red.) tatar qadınlarını erməni vəhşiliyindən xilas etməyə çalışmalıdır. Ancaq biz onların şirin dilinə aldandıq, ehtiyatı əldən buraxdıq və nəticədə erməni silahlı birləşmələrinin qarşısında əliyalın qaldıq, 30 il - bir igidin ömrü qədər - erməni zülmünü çəkəsi olduq.

Biz ermənilərin bizə münsibətlərində hiss edib duyduqlarımıza, görüb bildiklərimizə qarşı da biganə idik, düşmənə qarşı saymamazlıq, siyasi savadsızlıq və ictimai münasibətlərdə seyrçilik bizim səciyyəvi xüsusiyyətlərimizdəndir. Ermənilər isə heç nəyi unutmur, elə həmin sovet dönəmində böyüyən erməni dığalarına türkə ifrət ruhunda tərbiyə verirdilər. Azərbaycanlı türkləri məqam düşən kimi asıb-kəsmək təlimi öyrədilirdi. Yadımdadır, Bakıda tələbəlik vaxtı dostum Elbrusla bir ermənin evində kirayənişin qalası olduq. Günlərin bir günü dərsdən qayıdanda təmtəraqlı süfrə açıldığını gördük. Stol başında tanımadığımız adamlar əyləşmişdilər. Dönüb qayıtmaq istəyəndə ev sahibi razı olmadı, qolumuzdan tutub əyləşdirdi. Onun bu gün 85 yaşının olduğunu və əyləşənlərin də Rusiyanın müxtlif şəhərlərindən gəlmiş övladları olduğunu öyrəndik. Yeyir-içir, öz dillərində danışırdılar. Arada ev sahibi rus dilinə keçib bizim sağlığımıza tost dedi, amma heç kimin badələrə əl vurmadığını görüb əli əsə-əsə (o, paralic olmuşdu) hamısını öz qabağına çəkdi. "Siz orda öz həyatınızı yaşayırsız, mən isə burda bunlarla söhbət edirəm, nərd oynayıram, çay içirəm" - dedi. Övladları xorla cığır-bağır sala-sala badələri geri qaytardılar və yalandan dodaqlarına vurub yerə qoydular. Biz onların tərs nəzərlərini üzərimizdə hiss edə-edə, tələsdiyimizi bəhanə gətirib getdik...

Yenə Mahal kişiyə qayıdıram. Teletamaşanın ikinci hissəsində, əsərin sonunda Mahal daha bir monoloq söyləyir: "Getdilər... Görünür, ürəyimdən keçənləri anlada bilmədim. Yoxsa, onlara ehtiyacımın mənasını başa düşərdilər. Ah, bircə başa sala bilsəydim ki, ei-oba qarşısında fəxarət, şərafət hissi nə deməkdir! Anlada bilsəydim ki, yurd yolunda, ocaq eşqinə qılınc kimi sıyrılmağın misli nədir!.. Anlada bilsəydim ki, torpaqdan gedən - itkidi, torpağa qayıdan - artım. Torpaq itirə-itirə azalar, öləziyər, arta-arta çoxalar, qüvvətlənər..." Təəssüf ki, biz ötən 200 ildə itirə-itirə gəldiyimizdən torpaqlarımız azalmış, ermənilər isə qazana-qazana gəldiklərindən "Böyük Ermənistana"a doğru irəliləyə bilmişlər. Biz az qala bu boyda tarixi faktları da unutmuşduq...

Bəli, biz çox şeyi unutmuşduq. İndi isə ermənilər, ermənilik, erməni milli ideologiyası, erməni xisləti və sair haqqında çox şey bilirik. Lakin bildiklərimizi, gələcəyimiz naminə yeni nəsillərə ötürə biləcəyikmi? Bir də unutqanlıq etməyəcəyik ki? Nə deyim... Təki tarixin dərsləri - Qarabağ münaqişəsinin ibrət dərsləri unudulmasın, milli-tarixi yaddaş kimi nəsillərdən-nəsillərə ötürülsün.

Bizim ellərin dilində belə bir deyim var: "Düşmənin olanda da mərd ola." Düşünürəm ki, erməni namərdliyinə rəğmən yaranıb bu ifadə. Qədim Roma tarixçisi Tasit Korneli demiş, onların namərdliyi və xəyanətkarlığı hamıya məlumdur. Çörəyi dizinin üstündə olmaq, marığa yatıb əlverişli məqam gözləmək, fürsət düşüncə arxadan zərbə vurmaq, qadına, uşağa, xəstəyə, qocaya, şikəstə əl qaldırmaq, güclü qarşısında isə quyruq bulamaq, fərarilik etmək, dərilərini qorumaq naminə satqınlıq etmək onların ən alçaq xüsusiyyətlərindəndir.

Təsəvvür edin, onlar Zəfər yürüşündə döyüş meydanında məğlub olarkən və kütləvi surətdə qaçarkən (verilən məlumata görə Ermənistan ordusunda 10 mindən çox fərari olub), bizim şəhər və kəndlərimizi qadağan olunmuş "Smerc", kaset raketləri ilə atəşə tuturdular. Həmin günlərdə bu hadisədən xəbər tutan dünyanın 100-ə yaxın tanınmış qələm adamı (ABŞ, Rusiya, Hindistan, Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan, Qırğız Respublikası, Özbəkistan, Türkmənistan, Bolqarıstan, Şimali Makedoniya, Moldova, İslandiya, İspaniya, İraq və Azərbaycan təmsilçiləri) birgə bəyanat yayaraq ermənilərin bu vəhşiliyini qətiyyətlə pislədilər. Bəyanatda deyilirdi: "...Biz bununla bağlı öz narahatlığımızı, hiddətimizi bildiririk. Biz, qələm adamları çox narahatıq ki, döyüş bölgəsindən on kilometrlərlə uzaqda yerləşən Gəncə və Bərdənin (eləcə də digər yaşayış məntəqələrinin - Tərtər, Goranboy, Ağcabədi və b.) səbəbsiz yerə ağır silahlardan atəşə tutulması nəticəsində ölənlər, yaralananlar var, xeyli mülki infrastruktur, dinc əhalinin evləri dağılıb. Rəsmi təsdiq olunmuş məlumata görə, sentyabrın 27-dən hazırki vaxtadək dinc yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində 90 mülki şəxs həlak olub, 392 nəfər yaralanıb. Ən dəhşətlisi, ölən və yaralanan azərbaycanlıların bir hissəsi körpə, uşaq, qadın və qocadır...

Biz qələm adamları, Ermənistanı mülki əhalini hədəf almaqdan çəkindirmək üçün bütün dünya yazarlarını öz haqq səslərini qaldırmağa çağırırıq... "

Lakin namərdin bir adı var: Namərd! Onu sözlə, dillə haqq yoluna dəvət etmək əbəsdir. Ermənilər həmin bəyanatdan sonra da öz alçaq əməllərini davam etdirdilər.

Biz isə həmin namərdin bizim haqqımızda dediyi bir ifadə barədə də düşünməliyik. Nə üçün erməni belə deyir: "Müsəlmanın sonrakı ağlı"?!

***2025***